# Prokurorluq işçiləri peşə bayramını qeyd edib

***Sentyabrın 30-da Qəbələ Rayon Prokurorluğunun əməkdaşları peşə bayramını qeyd edib.***



Həmin gün prokurorluq işçiləri Heydər Əliyev Parkına gələrək ulu öndərin abidəsi önünə gül-çiçək dəstələri düzüb, ümummilli liderin işıqlı xatirəsinə öz dərin ehtiramlarını bildiriblər.

Sonra Qəbələ Rayon Prokurorluğunda peşə bayramı münasibətilə rəsmi yığıncaq keçirilib. Yığıncaqda rayon prokuroru Məqsəd Orucov prokurorluq orqanlarının keçdiyi şərəfli yoldan danışıb.

Tədbirdə iştirak edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov prokurorluğun əməkdaşlarını əlamətdar gün münasibətilə təbrik edib.

Sonda xatirə şəkli çəkilib.

**"Qəbələ"**
**Foto İlkin Vəlizadənindir.**

# Müəllimlər Günü qeyd olundu

Oktyabr ayının 5-də Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbir keçirilmişdir.

Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova, rayon təhsil şöbəsi müdiri əvəzi Yaşar Nəzirov, şöbənin kollektivi, ümumtəhsil məktəblərinin rəhbərləri və müəllimlərin bir qrupu Qəbələ şəhərinin mərkəzindəki Heydər Əliyev parkında ucaldılan ulu öndərin abidəsi önünə gül-çiçək dəstələri düzərək, müstəqil dövlətimizin qurucusunun xatirəsinə ehtiramlarını bildirdilər.





Tədbir Qəbələ şəhər 4 nömrəli tam orta məktəbində davam etdirildi. Rayon təhsil şöbəsi metokabinetinin müdiri Arifə Bayramova rayon təhsil şöbəsi adından müəllimləri təbrik etdi. Ölkəmizdə, o cümlədən rayonumuzda müəllimə, təhsilə göstərilən qayğıdan, rayon müəllimlərinin əldə etdikləri uğurlardan danışdı.

Rayon icra hakimiyyətinin məsul işçisi Azər Şirinov RİH başçısı cənab Səbuhi Abdullayevin adından müəllimləri peşə bayramları münasibətilə təbrik etdi.

Qəbələ şəhər 4 nömrəli tam orta məktəbin direktoru Qəşəngi Musayeva, QAC Qəbələ şöbəsinin sədri Sədaqət Bayramova, rayon uşaq poliklinikasının baş həkimi Sədaqət Rüstəmova, uşaq və ailələrə dəstək mərkəzinin müdiri Günel Ağayeva, əməkdar müəllim Sadıq Sadıqov, Həmzəli kənd tam orta məktəbin müəllimi Aslan İslamov müəllimləri təbrik etdilər, onlara işlərində yeni-yeni uğurlar arzuladılar.

Şagirdlər müəllimə, məktəbə həsr olunmuş şeirlər söylədilər.

Qabaqcıl müəllimlərdən bir qrupuna rayon təhsil şöbəsinin Fəxri fərmanları təqdim olundu.

**«Qəbələ»**
**Foto Səhrab Umuyevindir.**

# Ahıllar Günü keçirilmişdir

Qəbələ ağsaqqalları rayonun ictimai həyatında fəal iştirak edirlər. Onları daim məktəblilər, gənclər arasında görmək olar.

Müstəqil Azərbaycan tarixinin canlı şahidləri olan bu insanlar gənclərə vətənimiz Azərbaycanın müstəqillik yolu, müstəqilliyin qorunub saxlanması və əbədi olması üçün ulu öndərin həyata keçirdiyi tədbirlərdən danışırlar.

Ağsaqqallar təlatümlü dünyamızda ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qorunub saxlanan əmin amanlıq, inkişaf haqqında gənc nəslə ətraflı məlumat verirlər.

Qəbələ ağsaqqalları 1 oktyabr Ahıllar Günündə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, ehtiramlarını bildiriblər. Sonra çay süfrəsi başına toplaşan ağsaqqallar bu əmin-amanlıq şəraitini yaradan ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını dilə gətiriblər.

Tədbirdə iştirak edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov ağsaqqalları, RİH başçısı cənab Səbuhi Abdullayevin adından təbrik edib, onlara cansağlığı arzulayıb.

**Nahidə**
**ƏBDÜRƏHİMOVA.**
**«Qəbələ»**

# Qanunlara dəyişikliklər MM-də müzakirə edilib

***Azərbaycanın Dövlət bayrağı, Dövlət himni və Dövlət gerbi ilə bağlı Konstitusiya qanunlarına dəyişikliklər müzakirəyə çıxarılıb.***

***Bununla bağlı məsələlər Milli Məclisin 2017-ci il payız sessiyasının qanunvericilik işləri planına daxil edilib.***

***İşlər planında "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında", "Azərbaycan Respublikasının Dövlət gerbi haqqında" və "Azərbaycan Respublikasının Dövlət himni haqqında" qanun layihələrinə əlavə və dəyişikliklərin müzakirəsi yer alıb.***

# İşgüzar forum keçirilmişdir

***Qəbələdə Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin təşkilatçılığı ilə "Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti tədbirlərinin səmərəliliyinin artılması məqsədi ilə yerli icra hakimiyyəti orqanlarının və bələdiyyələrin nümayəndələrinin, habelə fiziki və hüquqi şəxslərin maarifləndirilməsi mövzusunda" İşgüzar Forum keçirilib.***




Forumu giriş sözü ilə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev açıb.

Maarifləndirici forumun məqsədi torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti tədbirlərinin səmərəliliyini artırmaq, görülən işləri təkmilləşdirmək, torpaqların təyinatı üzrə istifadəsinin təşkilində komitənin fəaliyyətini dövlət orqanları, bələdiyyələr, hüquqi və fiziki şəxslərlə əlaqələndirmək, onlara hüquq və vəzifələrini izah etmək, bu barədə ictimaiyyəti məlumatlandırmaq olub.



Eləcə də forumda torpaq münasibətlərinin tənzimlənməsi, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətində müasir dövrün çağrışları nəzərə alınaraq yeni prinsiplərin və mexanizmlərin tətbiqi barədə ətraflı məlumat verilib.

Yerli icra hakimiyyəti, bələdiyyələr, fiziki, hüquqi şəxslər və digər istifadəçilərin torpaqların istifadəsi ilə bağlı hüquq və vəzifələri nəzərə çatdırılıb. Torpaqların kateqoriyasından asılı olaraq onların istifadəsi, təyinatının dəyişdirilməsi qaydaları izah olunub. Bu sahədə normativ hüquqi aktların tələbləri, bu tələblərin pozulması halları, onları yaradan səbəb və şərait barədə müzakirələr aparılıb.

Mövzu ətrafında çıxış və müzakirələr olmuşdur.

Sonda vətəndaşları maraqlandıran, torpaqla bağlı gündəlik qarşılaşdıqları məsələlərə dair suallar dinlənilib, onlara komitənin nümayəndələri tərəfindən müvafiq izahatlar verilib.

**Rais RƏŞİDOV,**
**"Qəbələ"**
**Foto İlkin Vəlizadənindir.**